**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**

**Dillər və ədəbiyyatlar departamenti**

# "DÜNYA ƏDƏBİYYATI – 2"

**(Renesans dövrü)**

**fənninin**

**P R O Q R A M I**

Ali təhsilin bakalavriatura hazırlığı üçün

***Humanitar, təhsil və sosial elmlər fakültəsinin***
***Elmi Şurasının 23. 10. 2020-ci il 2 №-li qərarı ilə təsdiq edilmişdir***

**Bakı-2020**

**Tərtib edənlər:** **Qardaşxan Əzizxanlı Nəhmət**
Filologiya üzrə fəlsəfə doktoru

**Ülvi Babasoy Allahverdi**
Filologiya üzrə fəlsəfə doktoru

**Elmi redaktor:** **Dilbər Zeynalova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Əsgər Rəsulov**
Filologiya üzrə elmləri doktoru,prof.

**Rüstəm Lazımov**
Filologiya üzrə fəlsəfə doktoru

**“Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”, “Filologiya (Azərbaycan dili və ədəbiyyatı)” ixtisaslarının bakalavr təhsil pilləsi üçün hazırlanmış " Dünya ədəbiyyatı - 2” fənninin**

# İŞÇİ TƏDRİS PROQRAMI

## İzahat vərəqəsi

**Fənnin məqsədi:** “Dünya ədəbiyyatı-2” fənnində” erkən orta əsrlərdən XVII-XVIII əsrlərə qədərki Qərb ədəbiyyatının tədrisi nəzərdə tutulur. Bu dövrdə humanist bədii yanaşmalarla insana sevgi və fərdi-mənəvi kamilləşmə və bu kamilləşmənin bütün dəyərlərin başında gəlməsi əsərlərdə əsas ideyaya çevrilmişdir. Sevgi ən güclü silah olaraq obrazlandırılmışdır. Başqa bir cəhət, ədəbiyyata realist mövzular, və realist baxış bucaqları gəlmişdir.

Renessansın Şərq və Qərb dünyasında fərqli sosial-mədəni, tarixi-siyasi hadisələrin fonunda, müxtəlif ədəbi-estetik dünyagörüşlərin baxış bucağı kontekstində formalaşmasını təhsilalanlara öyrətməkdir. İntibah dövründə dövlət belə estetik hadisə kimi dəyərləndirilmişdir və ədəbiyyatda, mədəniyyətdə yeni üslubların, formaların, janrların, ideya və ideologiyaların yaranmasına təsir etmişdir.

Məqsəd, həm də İntibah dövründə ədəbiyyada şair və yazıçıların fərdi üslubunun yetkinləşməsinə təsir edən amillər , ümumiyyətlə, bədii mətnlərə fərd anlayışının gəlməsi, fərdi duyğu və düşüncələri, qəhrəmanın fərdi-mənəvi qənaətlərini formalaşmasını izah etməkdir..

**Gözlənilən təlim nəticələri:** Kursun sonunda tələbə və dinləyicilərin aşağıdakı **bilik və bacarıqları** əldə etməsi gözlənilir:

1. Orta əsrlərdə baş vermiş tarixi-ədəbi hadisələr haqqında biliklər əldə edilir.
2. Renesans dövründə yaranan dini-fəlsəfi cərəyanlar və təriqətlərin ədəbi-mədəni prosesdə yaratdığı dəyişikliklər haqqında biliklər əldə edilir.
3. Ədəbi-bədii əsərləri vasitəsi ilə Renessans dövrü Qərb mədəniyyəti mənimsənilir.
4. Əldə edilən nəzəri biliklərlə fərqli mədəniyyətlərin ədəbi əsərləri qarşılaşdırılır.
5. Tələbələrin bədii-estetik zövqləri inkişaf etdirilir.

**Mövzuların tədris saatları üzrə bölgüsü**

| № | Mövzuların adları | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Mühazirə | Məşğələ |
| 1 | İntibah dövrü və XVII-XVIII əsr Avropa ədəbiyyatı<br>Orta əsrlər ədəbiyyatı. Orta əsrlər dövrü Qərb ədəbiyyatı. Feodalizm dövrü Qərb ədəbiyyatı | 4 | 2 | 2 |
| 2. | İtaliyada və Fransada intibah. A.Dantenin "İlahi komediya" əsəri<br>F.Petrarkanın sonetləri. C.Bokkaçionun "Dekameron" əsəri.<br>F.Rablenin yaradıcılığı. | 4 | 2 | 2 |
| 3. | İngiltərədə intibah. C.Çoser. "Kenterberi hekayələri". V.Şekspirin yaradıcılığı. Sonetləri. V.Şekspirin "Hamlet" və "Otello" faciəsi | 4 | 2 | 2 |
| 4. | V.Şekspir. "Kral Lir"və "Maqbet" faciəsi<br>İspaniya və Portuqaliyada intibah.<br>Servantes. "Don Kixot" cəngavər romanına parodiya kimi. | 4 | 2 | 2 |
| 5. | Almaniya və Niderlandda intibah.<br>Erazm Roterdamlı. "Səfehliyin tərifi".<br>Fransada İntibah. F. Rablenin "Qarqantua və Pantaqruel" əsəri | 4 | 2 | 2 |
| 6. | XVII əsr Qərbi Avropa ədəbiyyatı.<br>İspan ədəbiyyatı. Lope de Veqa. "Sevilya ulduzu". | 4 | 2 | 2 |
| 7. | Fransız ədəbiyyatı. P.Kornelin "Sid" faciəsi. J.Rasinin "Fedra" əsərinin məzmunu. J.B.Molyerin "Skapenin kələyi" komediyası. "Tartüf," "Don Juan", "Xəsis", "Mizanttrop" komediyalarının məzmunu | 4 | 2 | 2 |
| 8. | İngilis ədəbiyyatı. Con Miltonun "İtirilmiş cənnət", "Qaytarılmış cənnət" poemalarının məzmunu. | 4 | 2 | 2 |
| 9. | XVIII əsr Qərbi Avropa ədəbiyyatı | 4 | 2 | 2 |
| 10. | İngilis ədəbiyyatında maarifçilik. C. Sviftin "Qulliverin səyahəti" romanı realist fantastika janrının nümunəsi kimi. | 4 | 2 | 2 |
| 11. | Erkən maarifçilik dövrü ədəbiyyatı. D.Defonun "Robinzon Kruzonun həyatı və qəribə macəraları" romanı. | 4 | 2 | 2 |
| 12. | Fransız ədəbiyyatında maarifçilik. F. Volterin "Kandid, yaxud optimizm" əsəri D.Didronun "Ramonun qardaşı oğlu" əsəri.<br>J.J.Russonun "Yuliya və ya Yeni Eloiza" əsərinin məzmunu. | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | Ş.L. Monteskyö. “Fars məktubları”nın məzmunu | | | |
| 13. | Alman ədəbiyyatında maarifçilik.<br>Y.V.Höte. “Gənc Verterin iztirabları” əsəri | 4 | 2 | 2 |
| 14. | Y.V.Höte. “Faust” əsərində xeyirlə şərin mübarizəsi. | 4 | 2 | 2 |
| 15. | Alman romantizminin təşəkkülü və yüksəlii dövrü<br>F.Şillerin “Məkr və məhəbbət” əsəri. F.Şillerin “Qaçaqlar”əsəri | 4 | 2 | 2 |

## Mövzu 1

## İntibah dövrü və XVII-XVIII əsr Avropa ədəbiyyatı

### Orta əsrlər ədəbiyyatı. Orta əsrlər dövrü Qərb ədəbiyyatı. Feodalizm dövrü Qərb ədəbiyyatı

İntibah dövrü və XVII-XVIII əsr Avropa ədəbiyyatı. Avropada intibah mədəniyyəti. Dövlət sənət əsəri kimi.Yakob Burxardtın İntibah mədəniyyətinə dair estetik görüşləri.

İtaliyada intibah mədəniyyəti estetika tarixi kontekstində. Orta əsrlər eposu. İbtiadi icma quruluşunun dağılması və feodal əlaqələri yaranması dövründə ədəbiyyat. Epos və onun ən qədim kökləri. Eposun erkən formalarından (arxaik epos) yetkin formalara doğru (qəhrəmanlıq eposu) təkamülü.

Kelt eposu*:* Kuxulin haqqında İrland saqaları. Kuxulinin ölkənin düşmənləri ilə mübarizəsi, «Fantastik» saqalar. Skandinav nəğmələri: «Böyük Edda».

İspan qəhrəmanlıq eposu*:* İspaniyada tarixi şərait. İspanların ərəblərə qarşı çoxəsrlik mübarizəsi. Sid haqqında dastan və poemalar. «Sid dastanı”. Sid və Koroğlu arasında oxşarlıq.

Almaniyada qəhrəmanlıq eposu*:* «Nibellunqlar haqqında dastan» və onun ən qədim poeziyaya gedib çıxan kökləri.

Trubadurların və truverlərin lirikası. «Qaranlıq əsrlər». Klerikal ədəbiyyat.

Şəhərlərin böyüməsi, pul-əmtəə əlaqələrinin inkişafı. Cəngavər poeziyasının ideya-bədii xüsusiyyətləri. Feodal cəngavər əlaqələrinin idealizə edilməsi.

Şəhərin feodallarla mübarizəsi. Şəhər ədəbiyyatının yaranması və onun realist xarakteri. XIII-XV əsrlərdə satirik ədəbiyyatın inkişafı. Orta əsrlər şəhər ədəbiyyatında mövcud qayda-qanunların tənqidi. Şəhər ədəbiyyatının janrları və üslubları.

## Mövzu 2

## İntibah dövrünün ədəbiyyatı. İtaliya və Fransada İntibah

İtaliyada intibah. İtaliya XIV-XV əsrlərdə. Ədəbiyyatda yeni meyllər. Şairlərin «Siciliya məktəbi» və «Şirin üşlub» poeziyası. İntibah ədəbiyyatında təhkiyə sənəti. "Min bir gecə nağılları" və intibah nəsri.

Dante orta əsrlərin son və yeni dövrün ilk şairi kimi. «Ilahi komediya» orta əsrlər mədəniyyətinin sintezi və yeni dövr ədəbiyyatına proloq kimi. Poemada axirət dünyasına baxış və təsəvvürlər. «İlahi komediya» da Şərq ünsürləri. Dantenin renessans dövrü ilə əlaqəsi..

İtaliyada intibah. Dünya klassikləri İntibah haqqında. İntibah dövrü bəşər tarixində ən böyük mütərəqqi çevriliş kimi.

Daxilə çəkilməyin estetikası: F.Petrarkanın sonetləri. Petrarka İtalyan humanizminin banisi kimi. Petrarkanm həyatı, ədəbi və elmi fəaliyyəti. Yaradıcılığının dövrləşdirilməsi. «Nəğmələr kitabı». Petrarkanm lirikası və onun Avropa intibahının inkişafında rolu.

Bokkaçço. Bokkaççonun həyatı və erkən yaradıcılığı, (cəngavər romanlarının yenidən işlənməsi, «Fyamentta» ilk Avropa psixoloji realist romanı kimi). Bokkaççonun ideya-bədii təkamülü. Gənc Bokkaçço son dərəcə cürətli novator kimi. Kurtuaz ədəbiyyatının ənənələrinin aradan qalıdırılması. İntibah realizmi uğrunda mübarizə. «Dekameron» və onun İntibah ədəbiyyatı tarixində yeri.

Fransa XV-XVI əsrlərdə. XV-XVI əsrlərdə Fransada ictimai-siyasi quruluş. I Fransis dövründə mütləq monarxiya. XVI əsrin ikinci yarısında dini müharibələr fransız cəmiyyətinin həyatında ictimai ziddiyyətlərin ifadəsi kimi.

Fransada humanizmin meydana gəlməsini şərtləndirən amillər və onun xüsusiyyətləri. Rablenin yaradıcılığı fransız humanizminin ən yüksək zirvəsidir. Rablenin humanist idealları.

## Mövzu 3

## İngiltərədə intibah

İngilis ədəbiyyatında intibah. İtalyan intibahının ingilis ədəbiyyatına təsirləri. I Elizabet dövrü ingilis ədəbiyyatı. Uilyam Şekspir. Şekspir sonet ustası kimi. İngiltərədə intibah. İngiltərədə intibahın sələfi C.Çoser və onun "Kenterberi hekayələri".

XVI əsrdə İngiltərədə İntibah ədəbiyyatının inkişafı. F.Bekonun elmdə sxolastika və ehkamçılığa qarşı mübarizəsi.

Drama və teatrın çiçəklənməsi. Şekspirin sələfləri. XVI-XVII əsrlərdə ingilis dramaturgiyasında demokratik və aristokratik xətlər. Şekspirin - ingilis İntibahının ən görkəmli nümayəndəsinin yaradıcılığı. Şekspir sonetlərinin özünəməxsusluğu .

Şekspirin komediyaları**.** Onların nikbin xarakteri, ailə əxlaqına qarşı mübarizə insanın təbii hisslərinin tərənnümü, yer üzündə insanın xoşbəxt olmaq hüquqlarının müdafiəsi. «Venesiyalı tacir» əsərində tamahkarlığın

tənqidi. Şeylek, Porsiya və Antonio obrazları. Birincisinin pulu həyat idealına çevirməsi, ikinci və üçüncüsünün isə pulu həyatı gözəl keçirmək üçün bir vasitə hesab etməsi. Fəal, çevik qadın obrazları İntibah estetik fikrinin nailiyyəti kimi.

Şekspirdə fəcilik anlayışı. Şekspirin dahiyanə faciələri. «Romeo və Cülyetta» orta əsrlər təəssübkeşlərinə qalib gəlmiş böyük insan məhəbbəti haqqında əsər kimi. «Romeo və Cülyetta Qərbin «Leyli və Məcnun»udur. Nizaminin «Leyli və Məcnun»u ilə Şekspirin «Romeo və Cülyetta» əsəri arasında yaxınlıq və fərq.

V.Şekspirin "Hamlet" faciəsində baş qəhrəman müəllifin fikir və düşüncələrinin əsas ifadəçisi kimi. Hamletin "Olum, ya ölüm" dilemmasının mahiyyəti.

V.Şekspirin "Otello" faciəsi: qısqanclıq, yoxsa insanlara inam (aldanış). Otello intibah dövrünün qəhrəmanı kimi.

Şekspir və Azərbaycan ədəbiyyatı. Şekspir və S.Vurğun. Şekspir və H.Cavid. Şekspir və C.Cabbarlı. Şekspirin Azərbaycan dilinə tərcüməsi tarixi. Şekspir Azərbaycan səhnəsində. Şekspirin Azərbaycanda nəşri və tədqiqi.

**Mövzu 4**

**V.Şekspir. "Kral Lir"və "Maqbet" faciəsi**

**İspaniya və Portuqaliyada intibah.**

**Servantes. "Don Kixot" cəngavər romanına parodiya kimi.**

İspaniya ədəbiyyatının "Qızıl dövrü" (1550-1680-ci illər) Ədəbi mətndə mən və başqası. Migel de Servantes. "Don Kixot" çoxsəsli roman kimi. Roman sənətində struktural analiz. Rene Jiraрın "üçbucaq arzu" tezisi. İspaniyada mütləqiyyət quruluşunun xüsusiyyətləri. Kilsə mütləqiyyətin xalqa yönəlik silahı kimi. Feodal-katolik irtica. Kəndli üsyanları.

XVI əsrdə ispan cəngavər romanının geniş inkişafı. Xalq yaradıcılığı. Migel de Servantes ispan ədəbiyyatının ən görkəmli realisti kimi. Servantesin həyatı və yaradıcılıq yolu. «Don Kixot» romanı XVI-XVII əsrlər İspaniyasında ictimai həyatının ümumiləşdirilmiş realist inikası kimi. Cəngavər ədəbiyyatının və vaxtı ötmüş feodal ideallarının tənqidi. Don Kixot obrazı və onun ikili xüsusiyyəti. Don Kixot müdrik adam və dəli kimi. Servantesin əsərində xalq kütlələrinin nümayəndələri. Sanço Pansa obrazı. Sanço Pansanın qubernatorluğu və onun xalq müdrikliyi. «Don Kixot» romanında Servantesin humanist dünyagörüşünün inikası. «Don Kixot» romanı uşaqlar üçün ədəbiyyatın gözəl nümunəsi kimi. Romanın ümumbəşəri əhəmiyyəti.

## Mövzu 5
## Almaniya və Niderlandda intibah.
## Erazm Roterdamlı. "Səfehliyin tərifi".
## Fransada İntibah. F. Rablenin "Qarqantua və Pantaqruel" əsəri

Erazm Roterdamlının "Xristian padşah"ı sosial-siyasi təfəkkürün heykəli kimi və dini-etik traktatı olan "Xristian döyüşçüsünə təlimat"ı. "Səfehliyin tərifi"ndə "müdrik"in satirik obrazı.

"Qarqantua və Pantaqruel" əsəri F. Rablenin ictimai-siyasi və pedaqoji görüşlərinin ən mükəmməl ifadəsi kimi.

İntibah dövrü humanizminin böhranı. XVII əsrdə ədəbi mübarizə. Bu dövr ədəbiyyatında əsas ədəbi cərəyanlar və meyllər. Klassisizm, Barokko, Rokoko.

XVII əsr ədəbiyyatında realizm problemi. İntibah realizmi yeni tarixi şəraitdə. Realist istiqamətli ədəbiyyatın uğurları. Ədəbiyyatda demokratizm meyllərinin inikası.

XVII əsr alman ədəbiyyatı və otuz illik müharibə. Alman klassisizminin xüsusiyyətləri.

XVII əsr alman ədəbiyyatında Barokko problemi. Almaniyada romanın inkişafı.

## Mövzu 6
## XVII əsr Qərbi Avropa ədəbiyyatı.
## İspan ədəbiyyatı. Lope de Veqa. "Sevilya ulduzu".

XVII əsr İtalyan klassisizmi və Qalileyin yaradıcılığı. Kampanella və onun «Günəş şəhəri» əsəri. XVII əsr İtalyan teatrı və barokko darmaturgiyası. Barokkonun nəzəriyyəçiləri. XVII əsrin II yarısında poeziya və nəsr.

Lope de Veqa - realist sənətin ən görkəmli nümayəndələrindən biri kimi. Kalderon de la Barka Lope de Veqanm dramaturgiya sələfi kimi. Yazıçının estetik görüşləri. Lope de Veqa pyeslərinin növ müxtəlifliyi. «Sevilya ulduzu» dramı. Pyesin ədəbin əvvəlki dramlarından mövzu və məzmun fərqi. Pyesin qısa süjeti.

XVII əsr ispan ədəbiyyatının çiçəklənməsi və «qızıl dövrü» kimi. XVII əsrdə İspaniyada kilsə və inkvizisiya. İntibah realizmi, klassisizmi və barokko ədəbi cərəyanları arasında gedən mübarizə.

## Mövzu 7
## XVII əsr Fransa ədəbiyyatı

XVII əsr Fransa tarixinin əsas hadisələri. Mütləqiyyət üsul-idarəsinin təşəkkülü. Ədəbiyyat və incəsənət sahəsində kardinal Rişelyenin və XIV Lüdovkin siyasəti. Fransada siyasi mübarizənin ədəbi prosesdə inikası. Əsas ədəbi cərəyanlar. Presioz ədəbiyyat fransız barokkosunun forması kimi. Bu ədəbiyyatda kübar cəmiyyətin

mütləqiyyət quruluşuna qarşı müxalifətçilik cəbhəsindən mübarizəsinin inkası.

N.Bualonun “Poeziya sənəti” əsəri “Poetika” və “Poeziya elmi” ndən (“Pizonlara məktub”) sonra poeziya ilə bağlı ən etibarlı fikir və tövsiyələr toplusu kimi.

P. Kornelin həyat və yaradıcılığı. Kornelin «Sid» dramı fransız klassisizminin ilk böyük əsəri kimi. Konflikt və süjet (P.Kornel tərəfindən klasisizmin - insan hissləri və vətəndaşlıq vəzifəsi konfliktinin işlənməsi).

J.Rasinin həyat və yaradıcılığı. «Andromaxa» faciəsi fransız klassisist dramaturgiyasında yeni dövrün başlanğıcı kimi. Kornelin və Rasinin faciələri arasında fərqlər.

J.B.Molyerin həyat və yaradıcılığı. Molyer komediya janrının böyük islahatçısı kimi. Bu janrın vəzifələri haqqında dramaturqun fikirləri. Dramaturqun ilk dövr yaradıcılığı. İtalyan və fransız xalq dramı təcrübəsinin yaradıcı şəkildə mənimsənilməsi. Molyerin «Presioz ədəbiyyatı»na qarşı mübarizəsi. «Şıltaq ədabazlar». «Don Juan» komediyası. «Mizantrop» («Mərdümgiriz») komediyası klassisizmin «yüksək komediya» janrının nümünəsi kimi. Alsest obrazı. «Xəsis» komediyası. Pulun hökmdarlığının tənqidi. Komediyada klassisist xarakterlərin yaradılması yolları. «Skapenin kələyi» komediyasında tənqid hədəfi. Molyer və M.F.Axundov, Molyer və N.Vəzirov, Molyer və Azərbaycan teatrı. Molyerin son dövr yradıcılığı. Molyerin Azərbaycanda nəşri, tədqiqi və təbliği.

XVII əsr Fransasının ən görkəmli məişət və siyasi təmsil ustası Jan Lafontenin yaradıcılığı.

## Mövzu 8

## XVII əsr İngilis ədəbiyyatı İngilis ədəbiyyatı. Con Miltonun “İtirilmiş cənnət”, “Qaytarılmış cənnət” poemaları.

XVII əsr İngiltərədə burjua inqilabında iştirak edən əsas qüvvələr. «Puritanlıq» anlayışı.

*C.Miltonun yaradıcılığı və inqilabi hərəkat.* Milton XVII əsrin böyük ingilis şairi və publisisti kimi. İnqilab illərində Miltonun publisistikası. Miltonun ingilis inqilabi hərəkatının başçısı Oliver Kromvelə münasibəti. İnqilabın məğlubiyyəti və Stüartlar sülaləsinin hakimiyyət başına qayıtdığı illərdə Miltonun taleyi. «İtirilmiş cənnət» poeması XVII əsr ingilis poeziyasının şah əsəri kimi. Əsərdə klassisizm və barokko ünsürlərinin birləşməsi. «İtirilmiş cənnət» və “Qaytarılmış cənnət” poemalarının ideya məzmunu və əsərlərin Milton yaradıcılığında yeri.

## Mövzu 9

## XVIII əsr Qərbi Avropa ədəbiyyatı

Klassizm Fransada rəsmi bədii metod kimi və onun geniş intişar tapmasmın səbəbləri.

Qassendi, Dekart, C.Lokk və b. filosofların, həmçinin J.Melyenin “Vəsiyyət” əsərinin fransız maarifçilərinə təsiri.

Lesaj, Marivo, Prevonun sosial və əxlaqi problemlərə marağın artdığını nümayiş etdirən

romanları, dövrün mədəniyyətini əks etdirən kitablar. Dramaturq Prosper Krebiyon-ata, Qiyom-Amfri de Şolye və Şarl Oqüst Lafar, Şarl-Pyer Kolardo, Klod Prosper Krebiyon- oğul, Lesaj, Mersye, A.Şenye, M.-J. Şenye, Şatobrian, P.Bomarşe və başqaları.

XVIII əsr Qərbi Avropa ədəbiyyatının görkəmli nümayəndələri- İngiltərədə Riçardson, Fildinq, Smollet, Şedrian, Almaniyada H.E.Lessinq və b.-nın yaradıcılıqları (icmal).

**Mövzu 10**

**İngilis ədəbiyyatında maarifçilik.**

**C. Sviftin "Qulliverin səyahəti" romanı. D.Defonun "Robinzon Kruzonun həyatı və qəribə məacəraları" romanı.**

Feodal sisteminin böhranı və burjua ictimai əlaqələrinin bərqərar olması şəraitində ədəbiyyatın inkişafı. Maarifpərvərlik dövrü və onun ideoloqoarı. Maarifçilik proqramının əsas müddəaları və şüarları. Sosial-tarixi və iqtisadi şəraitdən, elmdə və incəsənətdə milli ənənələrdən asılı olaraq Qərbi Avropa ölkələrində maarifçilik hərəkatının özünəməxsusluğu.

C.Sviftin həyat və yaradıcılığı. Svift irland xalqının müsətmləkə zülmünə qarşı mübarizəsinin başçısı kimi. Sviftin ilk əsərləri. «"Mahudçunun məktubları" », «Çəllək nağılı» pamfleti, onun aktuallığı. «Qulliverin səyahəti» romanı dövlət quruluşunun çatışmazlıqlarının və xüsusi mülkiyyət prinsipinə əsaslanan cəmiyyətin qüsurlarını açıb göstərən satira kimi.

D.Defonun həyat və yaradıcılığı. Onun publisistikasında maarifçilik ideyaları. «Robinzon Kruzonun həyatı və qəribə macəraları» romanı. Romanda Robinzon Kruzo surəti, onun tipik burjua obrazı. Əsərdə sahibkarlığın idealizə olunması. Naməlum torpaqların fəthi ideyasının tərənnümü.

**Mövzu 11**

**VIII əsr Fransa ədəbiyyatı Fransız ədəbiyyatında maarifçilik. F. Volterin "Kandid, yaxud optimizm" əsəri**

Fransız ədəbiyyatında maarifçilik. Fransada maarifçiliyin ilk mərhələsi. Volterin və Monteskyönun adı ilə bağlı birinci mərhələ: mütləqiyyətə və zadəgan cəmiyyətinin dünyagörüş mövqeyinə qarşı mübarizənin başlanması.

Ş.Mönteskyö Fransa maarifçiliyinin banisi kimi. Monteskyönun yaradıcılığı. «İran məktubları». Bu məktublarda Fransa mütləqiyyətinin tənqidi. Mönteskyö və M.F.Axundov.

F.M.Volterin ideya proqramının ziddiyyəti: hərtərəfli tənqidin və azadlıqsevərliyin güzəştə getmək meyli ilə birləşməsi. "Kandid, yaxud optimizm" əsəri. Volterin çoxşaxəli ədəbi-fəlsəfi fəaliyyəti. Onun estetikası, dramaturgiyası, epik poeziyası, nəsri.

## Mövzu 12

**Fransız ədəbiyyatında maarifçilik. F. Volterin "Kandid, yaxud optimizm" əsəri .**

**D.Didronun "Ramonun qardaşı oğlu" əsəri. J.J.Russonun "Yuliya və ya Yeni Eloiza" əsəri.**

D.Didronun "Ramonun qardaşı oğlu" siyasi pamfletində tənqid hədəfləri. D.Didro və ensiklopediyaçılar. D.Didro romanlarının mövzu dairəsi və ideya məzmunu.

J.J.Russo maarifçi-filosof, yazıçı, dramaturq, bəstəkar kimi. Russo Volter və Didronun rasionalizminə qarşı. Russo Fransız Maarifçilyinin radikal qanadının nümayəndəsi kimi. Mütəfəkkirin pedaqoji görüşləri: yaradıcılığında tərbiyə məsələləri. "Yuliya, yaxud Yeni Eloiza" epistolyar romanı.

Ş.L. Monteskyö. "Fars məktubları"nın məzmunu

## Mövzu 13

**Alman ədəbiyyatında maarifçilik.**

**Y.V.Höte. "Gənc Verterin iztirabları" əsəri**

XVIII əsrdə Almaniyada iqtisadi gerilik və ictimai durğunluqdan fərqli olaraq fəlsəfənin və ədəbiyyatın inkişafı. Q.E.Lessinqin maarifçi proqramı (sosiologiya və estetika).

*İ.V.Hötenin həyat və yaradıcılığı.* Hötenin şair, dramaturq, nasir, mütəfəkkir kimi yaradıcılığının mərhələlərə bölünməsi.

*«Gənc Verterin iztirabları» və sentimentalizm.* Höte insanın ziddiyyətli daxili aləminin böyük tədqiqatçısı kimi. Verter, Şarlotta və Albert obrazları.

Höte romantizmini qabarıq əks etdirən şeirləri: "Miqnon" ("Minona"), "Səyyah gecə nəğməsi", "Sevgiliyə yaxınlıq" və b.

Höte əsərlərinin Azərbaycan dilinə tərcüməsi.

## Mövzu 14

**XVIII əsr Alman ədəbiyyatında xeyirlə şərin mübarizəsi və Şərq mövzusu**

Y.V.Hötenin "Faust" mənzum romanı yeni dövr ədəbiyyatının əzəmətli nümunəsi" (Puşkin) kimi. Faust və Mefistofel obrazları timsalında xeyirlə şərin mübarizəsində xeyirin rəmzi qələbəsi.

Y.V.Höte və Şərq mədəniyyəti. Y.V.Hötenin "Qərb- Şərq divanı" estetik-fəlsəfi traktatı. Y.V.Höte və Nizami Gəncəvi. Y.V.Höte və Hafiz Şirazi.

**Mövzu 15**

**Alman romantizminin təşəkkülü və yüksəliş dövrü**

"Tufan və həmlə" dövründə alman romantizmi. Alman ədəbiyyatında Veymar klassisizmi. Fridrix Şiller. Fəlsəfi ballada janrının inkişafında Şillerin rolu. Şiller üsyankarlığı və «Tufan və həmlə» hərəkatının onun «Qaçaqlar», «Məkr və məhəbbət» dramlarında inikası. «Qaçaqlar» dramında respublika idealı. Şiller və Azərbaycan teatrı.

**Ədəbiyyat siyahısı**

**Əsas dərsliklər:**

1. Ə.Xəlilov, "Dünya ədəbiyyatı" II cild, Ali məktəblər üçün dərslik, (İntibah dövrü, XVII-XVIII əsr dünya ədəbiyyatı), Bakı, "Bilik", 2013, 536 s.

2.Ə.Xəlilov "Dünya əd" I cild, Bakı, "Araz" n., 2011, 450 s.

**Əlavə dərsliklər:**

1.T.Novruzuov, Dünya ədəbiyyatı tarixi, III hissə, Orta əsrlər Avropa ədəbiyyatı. I kitab, Bakı, 2010.

2. T.Novruzov, XVII əsr Qərb ədəbiyyatı, Bakı, 1994.

3. A.Y.İshaqlı, XVII əsr Qərbi Avropa ədəbiyyatı, Bakı, 2012.

4. İ.Şıxlı, XVIII əsr xarici ədəbiyyat tarixi, 1970.

Xarici ədəbiyyat:

**İngilis dilində**

1. Burckhardt Jacob. The Civilization of the Renaissance in Italy. Penguin Classics. 2002. 400 pages.

2. Walter Pater. The Renaissance. Palala Press. 2015, 268 pages.

**Türk dilində**

1. Fehmi Yahya Tuna. Dünya edebiyatı tarihi. İstanbul: Kesit Yayınları. 2019, 422 s.

2. Pamuk, O. Öteki Renkler / O. Pamuk. – İstanbul: Yapı Kredi Yayınları, – 2013, 470 s.

3. Parla, J. Don Kişot'tan Bugüne Roman. – İstanbul: Timaş Yayınları, – 2015, – 389 s.

4. Bahtin, M. Karnavaldan romana / M. Bahtin. Çeviren: Cem Soydemir. – İstanbul: Ayrıntı Yayınları, – 2014, – 368 s.

5. Bahtin, M. Rabelais ve Dünyası / M. Bahtin. Çeviren: Çiçek Öztek. – İstanbul: Ayrıntı Yayınları, – 2005, – 527 s

6. Girard, R. Romantik Yalan ve Romansal Hakikat / R. Girard. Çevirmen: Arzu Etensel İldem. – İstanbul: Metis Yayınları, – 2013, – 254 s.

7. Hölderlin Friedrich. Şiir və Tagedya Kuramı. İstanbul: Notos Kitap. 2012, 116 s.

**Mənbələr:**

1.A.Dante, “İlahi komediya”,B., 1973, 1988, 2004

2.C.Bokkaçio, “Dekameron”, B., 1966

3.M.Servantes, “Don Kixot”, B., 1985

4.N.Bualo, “Poeziya sənəti”, B., 1969

5.R.Erazm, “Səfehliyin tərifi”, (tərc. N.Hüseynli), B., Alatoran, 2010

6.V.Şekspir, “Seçilmiş əsərləri”,B., Azərnəşr, 1962

7.Y.V.Höte, “Qərb-Şərq divanı”, B., “Yazıçı”, 2000

8. F.Rable. Qarqantua və Pantaqruel (tərc.: Ə.Cavad, B., Öndər, 2005.

9.Fransız ədəb. antol. (J.B.Molyer “Skapenin kələyi”), B., 2013, Şərq-Qərb və b.